**UOT 339.13**

# XARİCİ-İQTİSADİ ƏLAQƏLƏRDƏ TURİZM FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Gülnar Xanlar qızı SƏMƏDOVA**
*İqtisad üzrə fəlsəfə doktoru*
*AMEA İqtisadiyyat İnstitutu*

**Vəfa Xanlar qızı RÜSTƏMOVA**
*Elmi işçi, AMEA İqtisadiyyat İnstitutu*

*gulnar@mail.ru*

*Son illər dünya iqtisadi sistemində müasir turizmin rolu sürətlə artır. Sivil cəmiyyətin inkişafı xalqlar arasındakı qarşılıqlı sıx ilişkilərin yaradılması ilə əlaqədar olmuşdur.*

*Elmi biliklərin mənimsənilməsi və müalicəvi xarakterli səyahətlər, su-dəniz, quru, atlı, piyada kimi turizm növlərinin əmələ gəlməsinə səbəb olmuşdur. Dünya iqtisadiyyatında mühüm rol oynayan turizm ölkənin iqtisadiyyatında xüsusi yer tutur.*

*Azərbaycanda müasir dövrdə turizmin sürətlə inkişafı bir çox xarici ölkələrdə insanların marağına səbəb olmuş və ölkəmizdə turist axını güclənmişdir ki, buda öz növbəsində iqtisadiyyata müsbət təsir göstərməklə yanaşı onun rentabelliyini təmin edir.*

**Açar sözlər:** *turizm, turizm kompleksi, uşaq turizmi, daxili turizm, xarici turizm.*

Müasir şəraitdə ölkəmizdə bir çox problemlərin, o cümlədən sosial, iqtisadi, maliyyə və s. həllində turizmin inkişafı mühüm əhəmiyyət kəsb edir. Müasir inteqrasiya şəraitində turizm mühüm amil və fəaliyyət sahəsi kimi, xeyli sayda kompleks problemlərin və idarəetmə mexanizmlərinin məcmusu və qarşılıqlı əlaqəsi kimi formalaşır, inkişaf edir və dəyişir. Onun sosial-iqtisadi ictimai, mədəni, iqtisadi və s. rolu qlobal xarakter daşımaqla spesifik meyarlara əsasən qiymətləndirilir. Çünki, mövcud təbii resursların iqtisadi dövriyyəyə, istehsal və istehlak prosesinə cəlb edilməsi, onların istifadəsi üçün infrastrukturların formalaşması, son nəticədə turizmin ümumi sosial - iqtisadi yüksəlişin mühüm tərkib elementinə çevrilməsi, müəyyən nəzəri-metodoloji prinsiplər və mexanizmlər əsasında formalaşdırılmış sistemli yanaşmanın nəticəsi kimi təzahür edir.

Turizm kompleksi, öz xüsusi sosial-iqtisadi mahiyyətini, inkişaf prosesində rolunu, həmçinin təşkilinin bazar modelinin spesifik xüsusiyyətlərini yaradır. Turizm kompleks və sistemli yanaşma metodologiyası baxımından bir sıra amillərin və mexanizmlərin ərazi, coğrafi və siyasi motivini formalaşdırır, ona təşkilati-iqtisadi idarəetmə sistemi və çevik idarəetmə obyekti kimi baxılmasını tələb edir.

Mütəxəssislərin hesablamalarına görə, dünyada istehsal edilən ümumi məhsulun 9%-i, hər 11 iş yerindən biri, investisiyaların 12,0%-i, dünya məhsul və xidmət ixracatının 7%-i (1,4 trln dollar), ümumi xidmət ixracının 30%-i, vergi daxilolmalarının 10,7%-i turizm fəaliyyəti nəticəsində yaranır. ÜTT-nin məlumatlarına əsasən, 2015-ci ildə dünyada turist axınlarında 1,184 milyon nəfərdən çox turist iştirak edib. Bu göstərici 2014-cü illə müqayisədə 50 milyon nəfər çoxdur və illik artım 4,4% olmuşdur. 2015-ci ildə turizm sənayesində əldə edilmiş gəlir 2014-cü ilə nisbətən 3,6% artaraq 1,232 trilyon dollar təşkil etmiş, turizm məhsullarının dünya ticarətində payı 2,8%-ə çatmışdır [1].

Qeyd etmək lazımdır ki, Azərbaycanda turizm fəaliyyəti 4 iyun 1999-cu ildə ölkə prezidenti, H.Ə.Əliyev tərəfindən "Turizm" haqqında qanun təsdiq edildikdən sonra daha da genişlənmişdir. Həmin qanunda ölkədə turizm fəaliyyətinin dövlət tənzimlənməsinin prinsipləri, turizm sahəsində lisenziyalaşdırma, sertifikatlaşdırma və standartlaşdırmada dövlətin rolu, turistlərin hüquq və vəzifələri və turizmdə təhlükəsizlik məsələləri öz əksini tapmışdır. "Turizm" haqqında qanunun tələb və prinsiplərinə uyğun olaraq Nazirlər Kabineti yanında xarici turizm şurası və digər departamentlər formalaşdırılmışdır. Azərbaycanda ardıcıl olaraq turizmin hərtərəfli inkişafına dair Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 27 avqust 2002-ci ildə, 2002-2005-ci illərdə, 6 aprel 2010-cu ildə 2010-2014-cü illərdə ölkədə turizm sənayesinin inkişafına dair Dövlət Proqramları qəbul olunmuşdur. Son dövrlər ölkə prezidenti İ.H.Əliyev tərəfindən regionların sosial-iqtisadi inkişafına, turizm sahəsində fəaliyyətin daha da genişləndirilməsinə və mövcud problemlərin vaxtında həll olunmasına xüsusi diqqət yetirilir. Belə ki, 01 sentyabr 2016-cı ildə ölkə prezidenti İ.H.Əliyev tərəfindən "Azərbaycan Respublikasında Turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam verilmişdir. Sərəncamda bir daha vurğulanır ki, qeyri - neft sektorunun sürətli inkişafına nail olmaq üçün turizm fəaliyyətinin genişləndirilməsinə xüsusi diqqət yetirilməlidir. Ötən dövr ərzində qeyri - neft sektorunun prioritet sahəsi kimi turizm sənayesində həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində turizm sahəsində fəaliyyətə münbit şərait yaradılmış və milli turizm komplekslərinin rəqabətə davamlılığı yüksəldilmişdir. Azərbaycan Respublikası Prezidentinin 16 mart 2016-cı il tarixli 1897 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji "yol xəritəsi" nin başlıca istiqamətlərindən biri kimi ixtisaslaşmış turizm və əyləncə fəaliyyəti müəyyən edilmiş və bu sahədə dünya təcrübəsindən istifadə

modelləri göstərilmişdir. Göstərilən strateji istiqamətlər Azərbaycanda mövcud turizm potensialından istifadə imkanlarının genişləndirilməsini, regionlarda turizm fəaliyyətinin stimullaşdırılmasını, yeni turizm marşrutlarının yaradılmasını, həmçinin rəqabət qabiliyyətli qiymət təklifinin təmin edilməsini zəruri edir. Ölkədə turizmin səmərəli təşkili, idarə olunması və koordinasiyası məqsədilə ölkə prezidentinin 01 sentyabr 2016-cı il tarixli sərəncamı əsasında Azərbaycan Respublikasında Turizm Şurasının yaradılması haqqında qərar qəbul olunmuşdur [2, s.36].

Ölkədə turizm sahəsinin mövcud olan çatışmazlıqları aradan qaldırmaq üçün müxtəlif növ qanun və qərarlar qəbul olunur. 16.12.16 tarixində ASAN Viza` portalı təqdim olundu.

2015-ci ildə qəbul edilmiş turistlərin sayı 2 006,2 min nəfər, göndərilmiş turistlərin sayı isə 4095,8 min nəfər olmuşdur. Öncəki illərə nisbətən artan meyl ilə müşahidə olunsa da, 2014-cü illə müqayisədə (qəbul edilmiş 2 297 min nəfər, göndərilmiş 4244,3 min nəfər) turizm sektorunda qəbul edilmiş turistlərin sayı azalmışdır. Buna səbəb dünyanı bürüyən qlobal maliyyə böhranın dərinləşməsi ilə manatın dollara nisbətən dəyərinin aşağı düşməsidir.

2014-cü ildən başlayaraq xaricə göndərilmiş turistlərin sayında artım olmuşdur. Bunun əsas səbəbi turizm xidmətlərinin keyfiyyət və qiymət baxımından əlverişli olmasıdır. Lakin, Azərbaycan daxilində bölgələrə, eləcə də paytaxt Bakıda dincəlmək üçün bir turistin xərclədiyi maddi vəsaitə, dünyanın bir çox ölkələrində (Gürcüstan, Türkiyə, İspaniya və s.) daha keyfiyyətli və sərfəli tur-xidmətin əldə edilməsi mümkündür. Təklif olunan mal və xidmətlərin keyfiyyətinin yüksəldilməsi, turizm məhsullarının çeşidlərinin artırılması, ölkədə qiymət siyasətinin düzgün aparılması və bölgələrdə infrastrukturun səviyyəsinin yüksəldilməsi tövsiyə olunur [3, s. 65].

Turizmin mühüm funksiyalarından biri istehsal olunmuş xidmət və məhsulların ixracına nail olmaqdan ibarətdir. Bu məqsədlə ölkəyə turist axınları təşviq edilməli, müxtəlif tədbirlər həyata keçirilməlidir. Qəbul edilən və göndərilən turistlərin sayında artım (təxminən 10%) müşahidə edilir, lakin bu artım ölkəmizin turizm potensialına adekvat hesab edilə bilməz. 2012-ci ildə bu göstərici Avroviziya mahnı yarışmasına görə nisbətən artıq olmuşdur-12%. Deməli bu tip tədbirlərin mütəmadi təşkili əlavə turist axınına stimul verə bilər [4, s. 814].

Ölkəmizə gələn əcnəbi ziyarətçilərin arasında qonşu ölkələrin vətəndaşları (Rusiya Federasiyası 36,7 %, Gürcüstan 29,6 %, Türkiyə 14,1 % və İran 5,9 %) daha çox olmuşdur.

Mövcud vəziyyətin təhlili göstərir ki, turizm xidmətlərindən istifadə etmək arzusunda olan orta gəlirli Azərbaycan vətəndaşları, əsasən, müalicəvi turizm xidmətlərindən yararlanmaq üçün Rusiya, istirahət və əyləncə üçün Türkiyə turizm bazarını seçirlər. Digər alternativlər də mövcuddur ki, buraya Gürcüstan, Qazaxıstan, Birləşmiş Ərəb Əmirliyi və İranı aid etmək olar. Belə

bir şəraitdə Azərbaycanın kütləvi turist cəlb etməsi üçün bir tərəfdən daxili turistləri, digər tərəfdən Rusiya və digər şimal ölkələrinin (əsasən MDB dövlətləri) vətəndaşlarının potensial bazar seqmenti qismində nəzərdə tutulması arzu olunandır [5, s. 11].

2016-ci ildə turistlərin 52,9%-i hava, 46,4%-i quru, su 0,7%-i su nəqliyyatı ilə daşınmışdır. Ümumi xərclərin: 43,9 %-i nəqliyyat, 28,2 %-i yerləşmə, 27,9 %-i qidalanma və digər xərcləri təşkil etmişdir. Göründüyü kimi, turist xərclərinin əsas hissəsin nəqliyyat xərcləri təşkil edir. Turizmin inkişafı üçün ilk növbədə dünyanın istifadə etdiyi ucuz uçuşların ölkədə fəaliyyət göstərməsinə şərait yaradılmalıdır. Bütün dünyada aviabiletlərin qiymətində ucuzlaşma getdiyi bir vaxtda Azərbaycanda AZAL inhisarçı mövqe tutaraq qiymətləri tənzimləmək istəmir, həm də bazara daha ucuz xidmət göstərən şirkətləri buraxmır: "Bazarda AZAL-ın ciddi rəqibləri olmadıqca, bu proses davam edəcək. Qiymətlərin aşağı düşməsi üçün mütləq rəqabət mühiti yaradılmalıdır. (Müqayisə üçün, AZAL-dan heç nə ilə fərqlənməyən Polşanın LOT aviaşirkəti ilə bir nəfər, Tbilisidən Frankfurta 280 manata, AZAL isə Bakıdan 766 manata uçur. Gediş-gəliş biletində birdən-birə 500 manata yaxın fərq yaranır. Halbuki məsafə təxminən eynidir, eyni xidmət səviyyəsi var [6, s. 11].

ASAN Viza portalı 2017-ci ildə tam istifadəyə veriləcək. Artıq əcnəbilər evlərindən çıxmadan, növbə gözləmədən, sənədlər toplamadan onlayn müraciət edərək viza əldə edə biləcəklər. "ASAN Viza" sisteminin yaradılması ilə elektron vizanın alınması vahid sistemdən həyata keçiriləcək. Bu proses 3 addımdan ibarət olacaq. Elektron vizalar 3 iş günü ərzində təqdim ediləcək" ölkədə qalma müddəti 30 günədək müəyyən edilən birdəfəlik elektron viza almaq üçün portala müraciət edən şəxs ödəniş etdikdən sonra onun vizası 3 iş günü müddətində elektron poçt ünvanına göndəriləcək. Viza üçün dövlət rüsumu 20 ABŞ dolları təşkil edir. Bu rüsum vizaya baxılması üçün tələb olunur və heç bir halda geri qaytarılmır. Elektron viza müraciətlərinin bir nəfərlik, ailə (ən azı 2, ən çox 10 nəfər) və qrup (ən azı 10, ən çoxu 300 nəfər) şəklində edilməsi nəzərdə tutulur. Elektron xidmətlərə keçidin təmin olunması dövlət üçün prioritet sahədir [7, s. 25].

"ASAN Viza" sistemi Azərbaycana gələn turistlərə turizm agentliklərinin iştirakı olmadan birbaşa viza almağa şərait yaradacaqdır. Həmçinin aidiyyəti dövlət qurumlarının birgə fəaliyyəti nəticəsində turist vizalarının verilməsi prosesi sadələşdiriləcəkdir.

İmzalı və möhürlü mehmanxana təsdiqinə, istirahət məqsədilə səfər edən turistlər üçün aidiyyəti dəvət məktubunun və bəyannamənin doldurulmasına qoyulan tələblərə yenidən baxılacaq, sənədlərin elektron versiyasının təqdim edilməsi və tam səhifəlik vizalar əvəzinə möhürlənmiş vizaların verilməsi prosedurlarının icrasına başlanılacaqdır. Yaradılmış işçi qrup elektron viza sisteminin asanlığını və çevikliyini artırmaq üçün Azərbaycan Respublikasının

Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birgə işləyəcəkdir.

Sərhəd buraxılış məntəqələrində yaranmış sıxlığın öncədən müəyyənləşdirilməsi üçün dövlət sərhəd məntəqələrinə yaxın ərazilərdə və Bakı şəhərindən rayonlara gedən yol qovşaqlarında sərhəddə sıxlıq dərəcəsini nümayiş etdirən elektron məlumat lövhələrinin quraşdırılması, onların mütəmadi fəaliyyətinin təmin edilməsi və məlumatların müntəzəm yenilənməsi istiqamətində müvafiq işlər görüləcəkdir. Gözləmə hallarının və bunun nəticəsində yaranan vaxt itkisinin minimuma endirilməsi, sıxlığın aradan qaldırılması, turist məmnunluğunun artırılması və turistlərin ölkəmizə axınının sürətləndirilməsi məqsədilə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sərhəd buraxılış məntəqələrindən əlavə sürətli keçidlə buraxılması məqsədilə müvafiq işlər görülməsi nəzərdə tutulur. Viza işləmlərinin sadələşdirilməsi nəticəsində turist sayının çoxalmasının 2020-ci ildə real ÜDM-in 20 milyon manat birbaşa və 10 milyon manat dolayı olmaqla, ümumilikdə 30 milyon manat artmasına gətirib çıxaracağı proqnozlaşdırılır. Əsas icra göstəricisi sadələşdirilmiş viza işləmləri nəticəsində gələn turistlərin sayında artımın yaranmasıdır.

Bu prioritetin iş yerlərinin yaradılması baxımından yalnız dolayı təsirləri olacaqdır. Qeyd etmək lazımdır ki, viza işləmlərinin sadələşdirilməsi hədəf ölkə qruplarından turist axınını artırmaqla yanaşı, digər prioritetlərin reallaşdırılması üçün də mühüm rol oynayacaqdır. ASAN Viza ölkəmizə 30 milyon xeyir verəcəkdir [8, s.25].

Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov mətbuata müsahibəsində qeyd edib ki, səfirlikləri və konsulluqların qərarından asılı olacaq gələcəkdə xarici səfirliklərlə, konsulluqlara əməkdaşlıq çərçivəsində Azərbaycan vətəndaşları da "ASAN Viza" portalından istifadə edə bilərlər. Agentlik sədri, həmçinin vurğulayıb ki, "ASAN Viza" portalının təhlükəsizliyi təkcə dövlət agentliyi ilə deyil, aidiyyatı dövlət orqanları, təhlükəsizlik orqanları ilə sıx əməkdaşlıq çərçivəsində təmin olunur: "Bu əməkdaşlıq çərçivəsində həm portalın, həm də ölkəmizə gələn turistlər barədə məlumatların yoxlanılması və onlara viza verilməsi barədə qərar müvafiq təhlükəsizlik orqanları tərəfindən təmin edilir". Müvafiq dövlət orqanları tərəfindən ölkəmizə girişi qadağan olunan şəxslərə portal vasitəsilə viza verilməyəcək: "Müvafiq dövlət orqanlarının arzuolunmaz şəxslər siyahısı var. Bu siyahılar sistemə daxil edilir. Sistem avtomatik olaraq bu siyahını yoxlayır və hər hansı bir şəxs dövlətin "arzuolunmaz şəxslər" siyahısında daxildirsə, onlara viza verilməyəcək. Ümumilikdə isə hər bir dövlətin hər hansı bir şəxsə viza verib-verməməsi onun müstəsna səlahiyyətində olan məsələdir" [6, s.15].

**Gələn və gedənlərin səfərlərinin məqsədlərinə görə bölgüsü**

| **Gələn turistlərin (qəbul edilmiş)** | **Gedən (Göndərilmiş)** |
|---|---|
| 1. istirahət və əyləncə 32,9% | **1.** işgüzar 38,5% |
| 2. işgüzar 31,1% | **2.** istirahət 30,6% |
| 3. qohum və dostları ziyarət 31,1% | **3.** qohum və dostları ziyarət 17,1% |
| 4. müalicə 2% | **4.** müalicə 5,1% |
| 5. digər 2,9% | **5.** digərləri 8,7% |

Buradan belə nəticə çıxarmaq olar ki, biznes mühitin stabilliyi ilə müşahidə olunan, turizm resurslarının istifadəsi üçün ölkə istirahət turizmi cəhətdən ildən ilə daha cazibəli görsənməkdədir.

Müalicə məqsədi ilə gələn turistlərin sayında artma müşahidə olunsa da, sanatoriya və müalicə obyektlərinin keyfiyyətlərində xidmətin səviyyəsi aşağı olduğundan onların sayında azalma müşahidə olunmuşdur.

Gecələmələrin 49,8%-i Bakı şəhərinin, 14,6 %-i Gəncə-Qazax, 9,6 %-i Quba-Xaçmaz, 26,0%-i isə digər iqtisadi rayonların payına düşmüşdür.

Hazırda turizm müəssisələrinin 87%-i Bakı şəhərində yerləşmişdir. Bunun səbəbi Bakının bütün proseslərdə mərkəzi şəhər kimi koordinator rolunda çıxış etməsidir. Ən böyük ticarət mərkəzlərinin, konfrans zallarının, mədəniyyət abidələrinin bu şəhərdə yerləşməsi, habelə beynəlxalq reysləri qəbul etdiyi üçün turist axını birbaşa bu şəhərə yönəlməkdədir [9, s. 25].

Azərbaycanın müstəqilliyi, yeni sosial, iqtisadi və siyasi şərait, Azərbaycanın Avropa Şurasına daxil olması və onun beynəlxalq əlaqələrinin genişlənməsi başqa sahələrdə olduğu kimi, statistika elminin, statistik məlumatların keyfiyyətinin yüksəldilməsinə tələbat yaratmışdır.

Dünyanın inkişaf etmiş ölkələrində turizm üzrə köməkçi (satellit) hesabatdan istifadə olunur. Azərbaycan da daxil olmaqla 75 ölkə bu hesablama sistemindən istifadə etməklə turizm sahəsində yol verilən yayınmaları aradan qaldırmağa çalışır. Bu ölkələrə Hindistan, İspaniya, Kanada, ABŞ, Fransa və s. aiddir.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 dekabr tarixli sərəncamı ilə “2008-2012-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramı” təsdiq edilmişdir. Qanunda nəzərdə tutulan vəzifələrin həyata keçirilməsi, ölkə miqyasında bütün statistik məlumat ehtiyatlarının inteqrasiyası əsasında dövlət hakimiyyəti orqanlarının vahid statistik məlumat sisteminin yaradılması ilə nəticələnəcəkdir.

Bu sahədə kompleks işlərin görülməsi nəzərdə tutulsa da, işlərin ləng getməsi bu sahədə hər hansı bir konkret fikir söyləməyə və ya müqayisə aparmağa əngəl yaradır. Azərbaycan Respublikası Statistika Komitəsinin işçilərinə dövlət tərəfindən müəyyən səlahiyyətlər verilməsi məqsədəuyğun olardı. Vergilər Na-

zirliyinin əməkdaşlarından fərqli olaraq, Statistika Komitəsinin əməkdaşlarının səlahiyyətləri olmadığı üçün, statistik məlumatların toplanması zamanı yanlış məlumatlar təqdim edən təşkilatlara inzibati xətalar məcəlləsinə əsasən 300-700 manat həcmində cərimə tətbiq olunur. Bu səbəbdən də Vergilər Nazirliyinin əməkdaşlarının səlahiyyətləri müqayisədə üstünlük təşkil edir. Nəticədə hər iki dövlət qurumu fərqli statistik məlumatlar təqdim etmiş olur ki, bu da istifadəçilərdə çaşqınlıq yaradır.

Turizminin populyar növlərindən biri uşaq turizmidir. Uşaq turizminə 7-17 yaşa qədər uşaqlar aid olunur. Bu gün əhalinin 35% - i uşaqlar təşkil edir. Uşaq turizminin inkişaf etdirilməsi aktual problemlərdən biridir. Uşaq turizminin inkişafı üçün ilk növbədə xarici və ya birgə fəaliyyət göstərən sahibkarların maraqlarını bu sahəyə yönəltməklə istirahət evləri, düşərgələr, uşaq turbazaları, sağlamlıq düşərgələri, sanatoriyaları və s. tikintisinə start verilməlidir.

Lakin hazırda Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə uşaqlarla bağlı çox az layihələr həyata keçirilir. Nazirlik yalnız müxtəlif festivallarda çox az sayda uşaqların iştirakı və buna bənzər tədbirlərin keçirilməsi ilə kifayətlənir. Bu gün uşaqların diqqətdən kənarda qalması Azərbaycanın 20 illik vaxt itkisinə səbəb ola bilər.

Uşaqlar sosial xidmət istifadəçiləri olmaqla daxili və xarici istirahət biletlərindəki güzəştlərlə yanaşı, onların yerləşdirilməsi, bilet və nəqliyyatdan güzəştli istifadə etmə hüquqları olmalıdır. Bütün dünyada gənclər üçün nəzərdə tutulmuş hostellər mövcuddur.

Uşaq turizminin inkişaf etdirilməsində mövcud problemləri sadaladığımız zaman uşaqlar üçün uşaq turizm infrastrukturunun, uşaqlar üçün turizm ilə məşğul olan ixtisaslaşdırılmış şirkətlərin, uşaqlar üçün təklif olunan maarifləndirmə turizm məhsullarının olmamağını, uşaq istirahət və turizm sahəsində çalışan mütəxəssislərin yetərsizliyini qeyd etmək olar. Uşaq turizmin inkişafı bu gün çox aktualdır. Turizmin bu növü əsasən mövsümi xarakter daşıyır, yəni tətil vaxtları (yaz, qış, bahar-8-12, yay 3 aylıq).

Uşaq turizmin daxili turizm (şagirdlər üçün ekskursiyalar, turistik idman yarışları, idrak və istirahət turları), xarici turizm (istedadlı uşaqların yaradıcılıq müsabiqələrinin, təhsil, kommersiya əsasında idrak və istirahət turları, beynəlxalq səfərlər və uşaq mərkəzləri təmsil edir:

- Beynəlxalq qiymətləndirmələrə görə, Azərbaycana gələn hər bir turist həftə ərzində min dollar xərcləyirdisə, Avropa oyunları keçirilən müddətdə turistlər təxminən iki min dollar pul xərcləmişdir. Buda turizm sektorunun inkişafına imkan verir. Hotellər, fərqli xidmət sektorları-restoranlar, kafelər, çay evləri praktiki olaraq Avropa oyunlarının Azərbaycanda keçirilməsindən faydalanmaq imkanı əldə edib".
- Avropa Oyunlarının Azərbaycanda keçirilməsi manata olan tələbin artmasına da səbəb olub: "Nəzərə alaq ki, ölkəyə gələn turistlər özü ilə Azər-

baycana xarici valyuta gətirirlər. Bu da manata tələbin artmasına səbəb olur. Praktiki olaraq xarici valyuta təklifi artır və manata isə tələbat yüksəlir. Bu da imkan verəcək ki, həmin müddətdə Mərkəzi Bank intervensiya xərclərini azaltsın. Bu manatın stabilliyi və manata olan tələbin artması baxımından olduqca vacibdir. Amma eyni zamanda Avropa oyunlarına həm də strateji aspektdən yanaşmaq lazımdır. Avropa Oyunlarına çəkilən vəsaitlərin 75 %-dən çoxu infrastruktur xərcləridir. Bu da o deməkdir ki, indi formalaşdırılan infrastruktur təbii ki, qalacaq. Növbəti oyunlar təşkil edilən zaman həmin infrastrukturdan istifadə etməklə Azərbaycan yenidən gəlir əldə etmək imkanına malik olacaq.

## Ədəbiyyat:


1. Azərbaycan Respublikasının Dövlət Statistik Komitəsi - www.stat.gov.az
2. "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair dövlət proqramı"
3. Həsənov A.N. "Azərbaycanda regional turizmin inkişafı: problemlər və perspektivlər", Bakı., Elm, 2012, 255 s..
4. Azərbaycanın Statistik Göstəriciləri 2015, Bakı, Səda, 814 səh.
5. Turizm haqqında Azərbaycan Respublikasının Qanunu, 21 noyabr 2014.
6. http://az.azvision.az/Sinaq_%3Cb%3Eimtahani%3C/Bu-shexslere-viza-verilmeyecek--107074-xeber.html
7. http://femida.az/news.php?id=44060
8. http://femida.az/news.php?id=44155
9. WTTC. Travel & Tourism economic impact 2014. s.7 Azerbaijan, 18 p


**Гюльнар Ханлар кызы Самедова**
**Вафа Ханлар кызы Рустамова**

## Совершенствование деятельности туризма в внешнеэкономических связях

## Резюме

В последние годы роль туризма в мировой экономической системе быстро растет. Развитие цивильного общества непосредственно связанно с тесным общением между народами.

Обладание научными знаниями, а также путешествие приключенского и оздоровительного характера привело к созданию водно-морского, коннопешего вида туризма.

В Азербайджане в настоящее время туризм развивается высокими темпами, что у людей многих иностранных государств вызывает огромный интерес и этим самым увеличивается поток туристов в нашу страну, что положительно влияет на экономику и паралельно обеспечивает рэнтабельность.

**Ключевые слова:** туризм, туристический комплекс, детский туризм, внутренний туризм, выездной туризм.

**Gulnar Xanlar Samedova**
**Vafa Xanlar Rustamova**

## Improvement activity of tourizm in foreign-economic relations

## Summary

Development of scientific knowledge has been cause of entertainment and medical nature travel, water, sea, land, on foot and horseback travel.

Tourism plays an important role in the global economy of the country which has a special place in the world economy.

The rapid development of tourism in Azerbaijan in modern period has became in the field of interest of people in a number of foreign countries.

**Keywords:** tourism, tourist complex, children's tourism, domestic tourism, outbound tourism.